UOT: 327

ELGÜN İBRAHİMZADƏ
Qərbi Kaspi Universitetinin doktorantı
Orcid: 0009-0001-2881-4757
ibrahimovelgun.2000@gmail.com

AZƏRBAYCAN VƏ TÜRKİYƏDƏ PREZİDENT SEÇKİLƏRİ MODELİNİN MÜQAYİSƏSİ: İKİMƏRHƏLƏLİLİK, SƏS ÇOXLUĞU VƏ İŞTİRAK TƏLƏBLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/130-138

Məqalə Azərbaycan və Türkiyədə prezident seçkilərinin hüquqi modelini müqayisəli şəkildə təhlil edir. Araşdırma üç əsas istiqamətə fokuslanır: seçkilərin bir və ya iki turlu quruluşu, prezidentin seçilməsi üçün tələb olunan səs çoxluğu və namizədlik/iştirak tələbləri. Hər iki ölkədə prezident birbaşa ümumxalq səsverməsi, mütləq səs çoxluğu prinsipi və müəyyən müddət üçün seçilir, lakin səlahiyyət müddəti, namizədlərin irəli sürülməsi və seçici iştirakının təşkili sahəsində fərqli hüquqi həllər tətbiq olunur. Məqalə bu oxşar və fərqli cəhətləri ümumiləşdirərək hər iki modelin legitimlik, siyasi sabitlik və seçki rəqabəti baxımından nəticələrini qısa şəkildə qiymətləndirir.

Açar sözlər: Azərbaycan, Türkiyə, prezident seçkiləri, ikimərhələli seçki sistemi, mütləq səs çoxluğu, namizədlik tələbləri, seçki iştirakçılığı, prezidentlik sistemi.

Giriş. Müasir demokratik sistemlərdə prezident seçkilərinin təşkili – seçki mərhələləri, səs çoxluğu meyarı və iştirak tələbləri – təkcə texniki prosedur deyil, siyasi hakimiyyətin legitimliyini müəyyən edən əsas faktorlardandır. Prezidentin bir və ya iki mərhələli sistemlə seçilməsi, sadə və ya mütləq səs çoxluğu ilə legitim sayılması, həmçinin seçici dairəsinin genişliyi və iştirak səviyyəsi siyasi sabitlik, rəqabət və prezidentə ictimai etimadla birbaşa bağlıdır. Bu səbəbdən prezident seçkilərinin modeli həm hüquqi, həm də siyasi müstəvidə ayrıca öyrənilməli olan mühüm institusional mexanizmdir. Azərbaycan və Türkiyənin prezident seçkiləri modelinin müqayisəsi bir sıra səbəblərə görə əhəmiyyətlidir. Hər iki ölkə respublika idarəetmə formasına, güclü prezident institutuna və eyni siyasi-coğrafi məkana malikdir. Tarixi, mədəni və siyasi əlaqələr, eyni zamanda fərqli partiya sistemləri və konstitusion inkişaf trayektoriyaları bu iki nümunəni müqayisə üçün əlverişli edir; belə müqayisə həm regional səviyyədə prezident seçkiləri modellərinin müxtəlifliyini, həm də ikimərhələlilik, səs çoxluğu və iştirak tələbləri kimi parametrlərin siyasi praktikaya təsirini daha aydın göstərir.

Bu məqalənin məqsədi Azərbaycan və Türkiyədə prezident seçkiləri modelini üç əsas istiqamət üzrə – seçkilərin ikimərhələli olub-olmaması, prezident seçilmək üçün tələb olunan səs çoxluğu meyarı və namizədlik/iştirak tələbləri – baxımından müqayisə etməkdir. Araşdırmada hər iki ölkənin normativ-hüquqi çərçivəsi və real siyasi praktikası bir-birini tamamlayan komponentlər kimi nəzərdən keçirilir; diqqət təkcə qanunların mətninə deyil, həm də onların faktiki tətbiqinə yönəldilir.

Prezident seçkiləri modelinə ümumi baxış. Prezident seçkilərinin hüquqi modeli - neçə tur keçirilməsi, qalib üçün tələb olunan səs çoxluğu və prezidentin parlament, yoxsa birbaşa xalq səsverməsi ilə seçilməsi - həmin ölkədə icra hakimiyyətinin legitimlik strukturunu müəyyənləşdirir. Müasir dövlətlərdə bu model əsasən üç ox üzrə fərqlənir: 1) bir mərhələli və ya ikimərhələli seçki; 2) sadə və ya mütləq səs çoxluğu (50%+1); 3) parlament tərəfindən dolayı, yaxud xalq tərəfindən birbaşa seçki [19].

Bir mərhələli modeldə prezident bir dəfə səsvermə ilə seçilir; bir çox ölkədə ən çox səs toplayan namizəd, səs faizi 50%-dən az olsa belə, qalib hesab olunur. Bu sistem "first-past-the-post" (FPTP) və ya sadə çoxluq sistemi adlanır [19, s.18; 33]. Meksikada prezident altı illik, yenidən seçilməyən müddətə birbaşa ümumi səsvermə yolu ilə və yalnız pluralite (sadə/nisbi çoxluq) əsasında müəyyən edilir [12]; Filippində də prezident seçkiləri əsasən majoritar, bir turlu FPTP prinsipi ilə keçirilir [22]. Bu sistemin üstünlüyü sadəlik və operativlikdir: seçki bir dəfə keçirilir, xərclər az olur, siyasi proses tez başa çatır. Lakin çoxpartiyalı, parçalanmış sistemlərdə prezident cəmi 30-40% səslə, yəni elektoratın məhdud dəstəyi ilə hakimiyyətə gələ bilər. Məsələn, Meksikada 2006-cı il prezident seçkilərində Felipe Kalderon

təxminən 35,9% səslə qalib gəlsə də, nəticə legitimlik müzakirələrinə səbəb olmuşdu [20].

İkinci əsas model ikimərhələli (iki turlu) sistemdir: birinci turda bütün namizədlər iştirak edir, heç kim adətən 50%+1 həddinə çatmadıqda isə ikinci tur ən çox səs toplamış iki namizəd arasında keçirilir. Fransa və Braziliya mütləq çoxluq əsasında iki turlu prezident seçkilərinin klassik nümunələridir: Fransada 1962-ci il konstitusiya islahatından bəri prezident xalq tərəfindən birbaşa, iki turlu sistemlə seçilir və birinci turda 50%+1 həddi keçilmədikdə ikinci turda qalib mütləq çoxluqla müəyyən olunur [9]; Braziliyada da prezident seçkiləri oxşar şəkildə təşkil edilir, birinci turda 50%+1 etibarlı səs tələbi ödənmədikdə iki ən çox səs almış namizəd arasında ikinci tur (runoff) keçirilir [32]. Bu model, xüsusilə çoxpartiyalı sistemlərdə prezidentin arxasında geniş elektorat koalisiyası formalaşdırdığı üçün demokratik legitimliyi gücləndirən mexanizm sayılır. Prezidentin seçilməsi üçün tələb olunan səs çoxluğu əsasən iki tipdir: sadə və mütləq çoxluq. Sadə çoxluq (plurality) modelində ən çox səs toplayan namizəd, faizi 50%-dən az olsa belə, qalib olur; bu meyar adətən bir turlu sistemlərdə, o cümlədən Meksika və Cənubi Koreyada tətbiq edilir [35]. Mütləq çoxluq (absolute majority, 50%+1) modelində isə namizəd etibarlı səslərin yarısından çoxunu almalıdır; bu tələbi ya xüsusi qaydalı bir turlu sistemlər (məsələn, Argentinada 45% və ya 40%+10% fərq modifikasiyaları), ya da klassik iki turlu model (Polşa, Fransa, Portuqaliya) təmin edir [35].

Mütləq çoxluq meyarı, nəzəri baxımdan, prezidentin "xalqın yarısından çoxunun" real və ya ən azı ikinci seçim dəstəyinə malik olmasını nəzərdə tutur. Xüsusən Fransa və Braziliya kimi ölkələrdə, geniş səlahiyyətli prezidentlik fonunda seçki sistemi məhz bu cür "güclü mandat" yaratmağa yönəldilir [26].

Sadə çoxluq (plurality) modeli əsasən iki güclü blokun formalaşdığı sistemlərdə daha səmərəli sayılır; məsələn, ABŞ-da ştat səviyyəsində prezident səsverməsinin FPTP qaydaları bu tip mexanizmə nümunədir. Çoxpartiyalı ölkələrdə isə bu model prezidentin cəmiyyətin böyük hissəsinin dəstəyini almadan seçilməsi riskini artırır və seçkilərdən sonra legitimlik mübahisələrinə zəmin yaradır; Meksika təcrübəsi bu risklərin praktiki nümunəsi kimi göstərilir [26].

Parlament tərəfindən və birbaşa xalq tərəfindən seçki. Prezident seçkilərinin üçüncü əsas oxu prezidentin birbaşa, yoxsa dolayı qaydada seçilməsi ilə bağlı fərqdir. Birbaşa seçkidə prezident birbaşa xalq səsverməsi ilə formalaşır; yəni seçicilər müəyyən olunmuş seçki günündə birbaşa konkret namizədə səs verirlər. Fransa, Braziliya, Meksika, Türkiyə və digər bir sıra ölkələrdə prezident məhz bu üsulla seçilir. Belə sistemlərdə prezident "xalqın birbaşa mandatı"-na malik olduğunu vurğulayır və bu, həm siyasi ritorikada, həm də konstitusion praktikada mühüm legitimlik arqumentinə çevrilir [9].

Dolayı (parlament və ya seçki kollegiyası vasitəsilə) seçki modelində isə prezident birbaşa seçicilər tərəfindən deyil, xüsusi seçilmiş nümayəndələr korpusu - parlament və ya geniş tərkibli seçki kollegiyası - tərəfindən seçilir. Məsələn, Almaniyada Federal Prezident Bundestaq üzvləri və ştat parlamentləri tərəfindən seçilmiş eyni sayda nümayəndədən ibarət Federal Konvensiya (Bundesversammlung) vasitəsilə seçilir [14]. Hindistanda prezident parlamentin hər iki palatasının və ştat/ittifaq əraziləri məclislərinin seçilmiş üzvlərindən ibarət seçki kollegiyası tərəfindən dolayı qaydada seçilir [34]. İtaliyada isə prezident parlamentin hər iki palatasının üzvləri və region şuralarının göndərdiyi nümayəndələrdən ibarət geniş seçki kollegiyası tərəfindən seçilir [36]. Bu cür dolayı seçki modeli adətən parlamentli respublikalarda tətbiq olunur və belə sistemlərdə prezident daha çox simvolik və balanslaşdırıcı institusional rol oynayır. Birbaşa seçkidən fərqli olaraq, dolayı seçki şəraitində prezidentin "güclü, plebisitar mandat" iddiaları nisbətən zəif olur; burada əsas legitimlik mənbəyi xalqın birbaşa səsi deyil, parlament çoxluğu və ya seçki kollegiyasındakı siyasi razılaşmadır [13].

Azərbaycan Respublikasında prezident seçkiləri modeli. Azərbaycan Konstitusiyasına görə dövlət hakimiyyətinin mənbəyi xalqdır və bu hakimiyyət xalqın azad iradəsi əsasında, o cümlədən ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilən gizli səsvermə ilə ifadə olunur [10]. Prezident respublikanın başçısı və icra hakimiyyətinin daşıyıcısı kimi Konstitusiyanın xüsusi fəsillərində tənzimlənir; müvafiq normalar prezidentin dövlət başçısı statusunu, səlahiyyət müddətini və seçilmə qaydasını müəyyən edir [10].

A.R. Konstitusiyasının 101-ci maddəsində (müvafiq dəyişikliklərlə) Azərbaycan Respublikasının Prezidentinin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, azad, fərdi və gizli səsvermə yolu ilə seçilməsi təsbit olunur [6]. 2016-cı il referendumundan sonra prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə uzadılmış, bu dəyişiklik sonrakı seçkilərdə - xüsusilə 2018 və 2024-cü il prezident seçkilərində

tətbiq edilmişdir [21].

Prezident və digər seçkilərin təşkili Qanunvericiliyin xüsusi aktı - "Azərbaycan Respublikası Seçki Məcəlləsi" ilə tənzimlənir. 2003-cü ildə qəbul edilmiş Məcəllə prezident, parlament və bələdiyyə seçkiləri, eləcə də referendumların keçirilməsinin ümumi prinsiplərini və prosedurlarını müəyyən edir [11]. Seçki Məcəlləsinin ümumi müddəalarında seçkilərin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə ilə keçirildiyi, vətəndaşların seçkilərdə iştirakının azad və könüllü xarakter daşıdığı ayrıca vurğulanır [11].

Mövcud konstitusion modelə görə Azərbaycan Respublikasının Prezidenti 7 illik müddətə, ümumi seçki hüququna malik vətəndaşlar tərəfindən birbaşa səsvermə yolu ilə seçilir. Prezidentin seçilmiş sayılması üçün tələb olunan meyar mütləq səs çoxluğudur: Konstitusiyada prezidentin "səslərin yarısından çoxunu" toplamaqla seçildiyi qeyd olunur ki, bu da faktiki olaraq 50%+1 prinsipi deməkdir [6]. Normativ model iki turlu sistem elementini də ehtiva edir. Əgər birinci turda heç bir namizəd səslərin yarısından çoxunu toplamırsa, ikinci turun keçirilməsi nəzərdə tutulur. Azərbaycanda prezident seçkilərinin "iki mərhələyə qədər" model kimi təsnif edə bilərik, ikinci turun yalnız tələb olunan mütləq çoxluq əldə olunmadıqda keçirildiyi göstərilir [29]. İkinci tur iki ən çox səs toplamış namizəd arasında və birinci turdan sonrakı ikinci bazar günü keçirilməlidir [11].

Seçkilərdə iştirak tələbləri: Konstitusiyanın 100-cü maddəsinə əsasən, Prezident vəzifəsinə namizəd ola bilmək üçün aşağıdakı əsas şərtlər qoyulur: 1. Ən azı 35 yaşlı olmalı; 2. Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq müddətdə daimi yaşayan; 3. Seçki hüququna malik; 4. Ağır cinayətə görə məhkum edilməmiş; 5. Başqa dövlətlər qarşısında öhdəlikləri olmayan; 6. Ali təhsilli; 7. ikili vətəndaşlığa malik olmayan və yalnız Azərbaycan Respublikasının vətəndaşı olmalıdır [5].

Bu tələblər həm vətəndaşın dövlətə bağlılığını və siyasi-hüquqi statusunu (Azərbaycan vətəndaşlığı, daimi yaşayış, digər dövlətlər qarşısında öhdəliklərin olmaması), həm də sosial-siyasi yetkinliyini (yaş həddi, ali təhsil, seçki hüququ) təmin etməyə yönəlir. Seçki Məcəlləsi bu konstitusion çərçivəni namizədliyin irəli sürülməsi, imzaların toplanması, qeydiyyat, seçkiqabağı təşviqat və s. üzrə konkret prosedurlarla tamamlayır və ətraflı tənzimləyir [2].

Seçicilərə dair iştirak tələbləri seçki prosesinə mümkün qədər geniş dairənin cəlbini nəzərdə tutur. Seçki Məcəlləsinə görə seçki hüququ Milli Məclis, prezident və bələdiyyə seçkilərində səsvermə və seçilmə hüququ kimi müəyyən edilir; bu hüquq 18 yaşı tamam olmuş, fəaliyyət qabiliyyətli Azərbaycan vətəndaşlarına şamil edilir, yalnız məhkəmə qərarı ilə fəaliyyət qabiliyyəti məhdudlaşdırılanlar və ağır cinayətə görə azadlıqdan məhrum edilənlər istisna olunur [2]. Seçici siyahıları dairə və məntəqə seçki komissiyaları tərəfindən tərtib edilir, müvafiq ərazidə yaşayan, seçki hüququna malik bütün vətəndaşlar bu siyahılara daxil edilir və onlara siyahılara düzəliş üçün müraciət etmək imkanı verilir. Qanunvericilik prezident seçkilərinin etibarlı sayılması üçün ayrıca "minimal iştirak həddi" nəzərdə tutmur; mənbələrdə majoritar sistemlə keçirilən seçkilərdə ən çox səs toplayan namizədin seçilmiş hesab edildiyi, seçki həddinin (barajın) isə daha çox referendumlar və əvvəlki proporsional seçkilərlə bağlı müzakirə olunduğu göstərilir [2]. Praktikada son illərin prezident seçkiləri bu normativ modelin necə işlədiyini göstərir. 11 aprel 2018-ci il növbədənkənar prezident seçkilərində seçici siyahılarında 5 293 561 nəfər qeydə alınmış, onlardan 3 962 123-ü səsvermədə iştirak etmiş (fəallıq 74,30%), etibarlı səslərin 3 394 898-i və ya 86,02%-i İlham Əliyevin, qalan hissəsi isə digər namizədlərin payına düşmüşdür [3]. 7 fevral 2024-cü il növbədənkənar prezident seçkilərində seçicilərin ümumi sayı 6 514 222, səsvermədə iştirak edənlərin sayı 4 978 950 olmuş, seçici fəallığı 76,43%, etibarlı səslərin 4 567 458-i və ya 92,12%-i İlham Əliyevin lehinə verilmişdir [4]. Bu rəqəmlər göstərir ki, Azərbaycan modelində prezident seçkiləri faktiki olaraq birinci turda başa çatır, əsas namizəd etibarlı səslərin mütləq çoxluğunu əldə edir və iştirak səviyyəsi Seçki Məcəlləsində nəzərdə tutulmuş ümumi seçki prinsiplərinə uyğun olaraq kifayət qədər yüksək təqdim olunur. Normativ və praktiki müstəvi müqayisə edildikdə, Konstitusiya və Seçki Məcəlləsində təsbit olunmuş majoritar, ümumi və bərabər səsvermə modelinin rəsmi statistikada bir turda formalaşan səs çoxluğu ilə reallaşdığı görünür; bu da elmi ədəbiyyatda Azərbaycan prezident seçkiləri modelinin hüquqi baxımdan sabit, prosedur baxımından isə nisbətən standartlaşmış formatda xarakterizə olunması üçün əsas kimi göstərilir.

Türkiyə Cümhuriyyətində prezident seçkiləri modeli. Türkiyədə prezident seçkiləri modeli XX əsrin sonu - XXI əsrin əvvəllərində həyata keçirilən konstitusiya islahatları ilə formalaşmışdır. 1982-

ci il Konstitusiyasına görə dövlət başçısı birbaşa xalq tərəfindən deyil, Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən seçilir, 102-ci maddəyə əsasən prezident TBMM üzvlərinin üçdə iki çoxluğu ilə gizli səsvermə nəticəsində, parlament daxilində bir neçə turdan ibarət prosedurla müəyyən olunurdu; xalqın iştirakı isə dolayı şəkildə parlament nümayəndələri vasitəsilə təmin edilirdi [25]. 2007-ci ildə qəbul edilən 5678 saylı qanunla 101-ci maddə dəyişdirilərək prezidentin birbaşa xalq tərəfindən seçilməsi prinsipi təsbit olunmuş və referendumla təsdiqlənmişdir; bununla prezident institutunun legitimlik bazası parlamentdaxili kompromisdən ümumxalq səsverməsinə keçirilmiş, səlahiyyət müddəti 5 il və eyni şəxsin maksimum iki dəfə seçilə bilməsi qaydaları konstitusion səviyyədə rəsmiləşdirilmişdir [38; 39]. 2017-ci il konstitusiya islahatı (6771 saylı qanun) isə ölkəni parlament sistemindən prezident respublikasına - Türkiyə praktikasında "Cumhurbaşkanlığı Hükümet Sistemi" adlandırılan modelə - keçirmişdir: Konstitusiyanın 104-cü maddəsinin hazırkı redaksiyasında yürütmə səlahiyyətinin birbaşa prezidentə məxsus olduğu, onun həm dövlət başçısı, həm də icra hakimiyyətinin əsas daşıyıcısı kimi çıxış etdiyi göstərilir, 101-ci maddə isə prezident seçkilərinin xalq tərəfindən birbaşa keçirilməsi, namizəd üçün 40 yaş, ali təhsil və millət vəkili seçilmək üçün nəzərdə tutulmuş ümumi şərtlərə uyğunluq, eləcə də iki müddətlik limitin saxlanılması barədə hökmləri qoruyur [28; 39]. Bu ardıcıl dəyişikliklər prezident seçkiləri formasını parlament daxilində dolayı seçkidən birbaşa ümumxalq seçkisinə və güclü prezidentlik sisteminə çevirmişdir. Mövcud hüquqi çərçivədə Türkiyədə prezident seçkiləri iki turlu, mütləq çoxluq prinsipi əsasında keçirilir. Konstitusiyanın 101-ci maddəsi və 6271 saylı "Cumhurbaşkanı Seçimi Kanunu"na görə ümumi səsvermədə etibarlı səslərin 50%+1-ni alan namizəd birbaşa prezident seçilir; bu həddə çatılmadıqda, iki həftə sonra keçirilən ikinci turda yalnız ən çox səs toplamış iki namizəd iştirak edir və bu mərhələdə etibarlı səslərin çoxluğunu alan namizəd qalib olur [24]. 6271 saylı qanunun 4-cü maddəsi birinci turda mütləq çoxluq əldə olunmadıqda ikinci turun tarixi, iştirak edə bilən namizədlər, namizədin iştirak etməməsi və ya tək namizədlə seçki hallarında tətbiq olunan qaydaları detallı müəyyən edir [24]. Modelin hüquqi məntiqi odur ki, prezident təkcə nisbi çoxluğun deyil, mümkün qədər geniş elektorat dəstəyinin daşıyıcısı olsun və parçalanmış siyasi mənzərədə belə ikinci turda seçicilərin əksəriyyətinin iradəsini əks etdirən namizəd formalaşsın. Seçkilərin ümumi, bərabər, birbaşa və gizli səsvermə prinsipləri əsasında, hüquq-mühafizə və məhkəmə orqanlarının nəzarəti altında keçirilməsi 298 saylı "Seçimlerin Temel Hükümleri ve Seçmen Kütükleri Hakkında Kanun"-da və 6271 saylı qanunun 2-ci maddəsində vurğulanır [24].

Namizədlik və iştirak tələbləri Türkiyə modelində həm fərdi hüquqi şərtləri, həm də institusional dəstək mexanizmlərini birləşdirir. Konstitusiyanın 101-ci maddəsinə və 6271 saylı qanunun 6-cı maddəsinə əsasən, prezidentliyə namizəd olmaq üçün şəxs 40 yaşını tamamlamalı, ali təhsilli olmalı və millət vəkili seçilmək üçün nəzərdə tutulmuş ümumi tələblərə cavab verməlidir [39]. 6271 saylı qanunun 7 və 8-ci maddələrinə görə prezidentliyə namizəd Türkiyə Böyük Millət Məclisində qrupu olan partiyalar, son parlament seçkilərində ümumi səslərin müəyyən faizini toplamış partiyalar və ya ən azı 100 min seçicinin imzası ilə irəli sürülə bilər [24]. Beləliklə, həm parlamentdə təmsil olunan partiyalar namizədlikdə əsas rol oynayır, həm də geniş ictimai dəstək qazana bilən şəxslər birbaşa seçici imzası yolu ilə prezident seçkilərinə qoşula bilirlər. Seçici kimi iştirak üçün əsas şərt Türkiyə vətəndaşlığı və seçki yaşına çatmaqdır; ümumi seçki hüququ, bərabərlik və gizli səsvermə prinsipləri 298 saylı qanunun 2-ci maddəsində təsbit olunub [37]. Prezident seçkiləri üçün ayrıca minimal iştirak həddi nəzərdə tutulmur, lakin praktiki olaraq seçici fəallığı ənənəvi olaraq yüksəkdir. Son dövrdə keçirilən prezident seçkiləri bu iki turlu, mütləq çoxluq modelinin faktiki işləməsini aydın göstərir. 2007-ci il islahatından sonra prezident ilk dəfə 10 avqust 2014-cü ildə birbaşa xalq səsverməsi ilə seçilmiş, həmin seçkidə namizədlərdən biri birinci turda etibarlı səslərin 50%-dən çoxunu qazanaraq ikinci tura ehtiyac qalmadan prezident olmuşdur. 2017-ci islahatla prezidentlik sisteminə keçiddən sonra 24 iyun 2018-ci il seçkilərində də qalib namizəd yenə birinci turda səslərin 50%-dən çoxunu almışdır [40]. 2023-cü il prezident seçkilərində isə birinci turda heç bir namizəd 50%+1 həddini keçmədiyindən seçki 28 may 2023-cü ildə keçirilən ikinci tura qalmış, burada etibarlı səslərin çoxluğunu alan namizəd prezident seçilmişdir [16]. Müxtəlif mənbələrə görə bu dövrdə prezident və parlament seçkilərində iştirak səviyyəsi ümumilikdə 80-90% intervalında dəyişmiş, xüsusən 2018 və 2023 prezident seçkilərində seçici fəallığı çox yüksək qeydə alınmışdır; bu, prezident seçkilərinin Türkiyə siyasi sistemində mərkəzi hadisə kimi qavranıldığını göstərir [15].

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin prezident seçkiləri modelinin müqayisəli təhlili. Azərbaycan və Türkiyə prezident seçkiləri modellərinin müqayisəsi göstərir ki, hər iki ölkədə formal-hüquqi çərçivə bir-birinə olduqca yaxın olsa da, praktiki siyasi dinamika fərqli nəticələr doğurur. Normativ baxımdan həm Azərbaycanda, həm də Türkiyədə prezident birbaşa ümumxalq səsverməsi ilə, mütləq çoxluq əsasında və iki tura qədər model üzrə seçilir: Azərbaycan Konstitusiyasında prezidentin "səslərin yarısından çoxunu" toplamaqla seçildiyi və tələb olunan çoxluq alınmazsa ikinci turun keçirildiyi, yalnız daha çox səs toplamış iki namizədin bu mərhələdə iştirak etdiyi qeyd olunur [6]. Türkiyə Konstitusiyası və müvafiq seçki qanunvericiliyi də prezidentin birbaşa xalq tərəfindən, iki turlu sistemlə və "50%+1" prinsipi ilə seçildiyini, birinci turda bu həddə çatılmadıqda iki ən çox səs alan namizəd arasında ikinci turun keçirildiyini nəzərdə tutur [27]. Yəni "ikimərhələlilik" və "mütləq çoxluq" hər iki modelin baza prinsipləridir.

Faktiki tətbiqə baxdıqda isə ikimərhələli mexanizmin necə işə düşməsi ölkələr üzrə fərqlənir. Azərbaycanda prezident seçkiləri indiyə qədər həmişə birinci turda başa çatıb: 2018-ci ildə keçirilən seçkilərdə İlham Əliyev etibarlı səslərin 86,02%-ni, seçici fəallığı isə təxminən 74,52%-ni təşkil etmişdir; 2024-cü il seçkilərində də rəsmi nəticələrə görə İlham Əliyev səslərin 92,12%-ni almış, iştirak 76% ətrafında olmuşdur [30]. Bu tendensiya göstərir ki, Azərbaycanda normativ olaraq ikinci tur nəzərdə tutulsa da, praktikada mütləq çoxluq elə birinci mərhələdə formalaşır və ikinci tura ehtiyac yaranmır. Türkiyədə isə həm birinci turda nəticə verilən, həm də real ikinci tur ssenarisi mövcuddur: 2018-ci il prezident seçkilərində Rəcəb Tayyib Ərdoğan birinci turda 52,59% səslə prezident seçilmiş, seçici fəallığı 83-86% intervalında qeydə alınmışdır [31]; 2023-cü ildə isə heç bir namizəd 50%+1 həddini keçmədiyi üçün seçki ikinci tura qalmış, ilk turda Erdoğan 49,24%, Kılıçdaroğlu 45,07% səs toplamış və 85%-ə yaxın fəallıqla keçirilən ikinci turda mütləq çoxluqla qalib müəyyənləşdirilmişdir [17]. Beləliklə, kağız üzərində oxşar görünən iki turlu model praktikada Azərbaycanda daha çox "bir tur + potensial ikinci tur", Türkiyədə isə həqiqətən işləyən "runoff" mexanizmi kimi təzahür edir. Səs çoxluğu meyarı baxımından isə hər iki ölkə sadə çoxluqdan deyil, mütləq çoxluqdan istifadə edir. Azərbaycan Konstitusiyasında prezidentin "səslərin yarısından çoxu" ilə seçilməsi xüsusi vurğulanır [6]; IFES və International IDEA kimi beynəlxalq mənbələr də Azərbaycanın prezident seçkilərini "birbaşa, mütləq çoxluq əsasında, iki tura qədər" model kimi təsnif edir [41]. Türkiyə haqqında məlumat verən mənbələrdə də prezidentin "absolute majority" (Mütləq əksəriyyət) - yəni 50%+1 səslə seçildiyi, bu hədd alınmayanda iki turlu sistemin işə düşdüyü göstərilir. Fərq ondan ibarətdir ki, Azərbaycanda mütləq çoxluq adətən çox yüksək faizlə (80-90% aralığında) formalaşır və hakim namizəd birinci turdan kənara çıxmadan seçilir, Türkiyədə isə 50%+1 həddi rəqabətli çoxpartiyalı mühitdə koalisiyaların formalaşmasını təşviq edən real siyasi baryer kimi çıxış edir: 2018 və 2023 seçkilərində "Cümhur İttifaqı" və "Millət İttifaqı" kimi blokların yaranması, xüsusən ikinci tur kampaniyasında müxtəlif partiya və namizədlər arasında dəstək razılaşmalarının önə çıxması bu məntiqə uyğundur [17].

Azərbaycan və Türkiyədə namizədlik və iştirak tələbləri müqayisə edildikdə, modellərin vurğuladığı meyarlar fərqli istiqamətləri önə çəkir. Azərbaycanda Konstitusiya namizəd üçün əsasən fərdi-hüquqi şərtlərə - vətəndaşlıq, ölkə ərazisində ən azı 10 il daimi yaşayış, ağır cinayət məhkumluğunun olmaması, ikili vətəndaşlığın qadağan edilməsi, ali təhsil və s. - diqqət yetirir; namizədlik üçün əlavə olaraq Seçki Məcəlləsində müəyyən sayda seçici imzası və respublika üzrə geniş coğrafi dəstək tələbi nəzərdə tutulur [7]. Türkiyədə isə Konstitusiya 40 yaş, ali təhsil və millət vəkili seçilmək üçün tələb olunan ümumi meyarlara uyğunluğu əsas götürməklə yanaşı, 6271 saylı qanun vasitəsilə namizədliyin parlamentdə qrupu olan partiyalar, müəyyən səs faizi toplamış partiyalar və ya ən azı 100 min seçicinin imzası ilə irəli sürülməsini mümkün edir. Bu baxımdan Azərbaycan modeli daha çox namizədin hüquqi statusu və şəxsi uyğunluğuna, Türkiyə modeli isə həm bu şərtlərə, həm də arxasında dayanan siyasi təşkilatlanma və seçici səfərbərliyi gücünə önəm verir. Hər iki ölkədə aktiv seçki hüququ, əsasən, 18 yaşına çatmış vətəndaşlara şamil olunur; son seçkilərdə həm Azərbaycanda, həm də Türkiyədə seçici fəallığı rəsmən yüksək faizlərlə təqdim olunur [18; 42].

Siyasi nəticələr baxımından hər iki model güclü prezident institutuna yönəlsə də, partiya sistemi və rəqabət strukturu fərqli görüntü yaradır. Azərbaycanda prezident seçkiləri respublika üzrə vahid dairədə, majoritar qaydada keçirilir və açıq mənbələrdə göstərildiyi kimi, 2000-ci illərdən bəri eyni siyasi lider ardıcıl olaraq prezident seçkilərində iştirak və qələbə əldə etmişdir; bunun fonunda iki turlu

mexanizm nəzəri imkan kimi mövcud olsa da, faktiki olaraq birinci turda formalaşan yüksək səs payı siyasi sabitlik və davamlılıq təsəvvürü yaradır. Türkiyədə isə iki turlu sistem, proporsional parlament seçkiləri ilə birlikdə, çoxpartiyalı, lakin prezidentlik mübarizəsində getdikcə "iki bloklu" (hakim və müxalif ittifaqlar) strukturun formalaşmasına gətirib çıxarır; son seçkilərdə prezidentlik uğrunda rəqabət əsasən geniş koalisiyalar əsasında gedir və ikinci tur bu koalisiyaların daha da konsolidasiyasına imkan verir [8]. Nəticə etibarilə, Azərbaycan modeli normativ baxımdan iki turlu və mütləq çoxluq prinsiplərinə əsaslanmış, praktikada isə sabit, bir mərhələdə nəticə verən prezidentlik institutu kimi xarakterizə oluna bilər; Türkiyə modeli isə eyni prinsiplərə söykənsə də, rəqabətli çoxpartiyalı mühitdə ikinci tur mexanizmi vasitəsilə koalisiyaların formalaşdığı və seçilmiş prezidentin arxasında geniş elektorat dəstəyinin təmin edildiyi bir siyasi çərçivə yaradır.

Nəticə. Azərbaycan və Türkiyədə prezident seçkiləri birbaşa, ikimərhələli və mütləq çoxluq prinsiplərinə əsaslanır: hər iki ölkədə prezident xalq tərəfindən seçilir, birinci turda səslərin 50 faizindən çoxu toplanmadıqda ən çox səs almış iki namizəd arasında ikinci tur keçirilir. Prezidentlik müddəti və siyasi mühit fərqlidir: Azərbaycanda prezident 7, Türkiyədə 5 il müddətinə seçilir. Namizədlik tələbləri hər iki ölkədə ali təhsil, müəyyən yaş həddi və seçici dəstəyi (imza toplanması və ya parlament təmsilçiliyi) kimi oxşar prinsiplərə əsaslanır; Azərbaycanda geniş imza tələbi və digər hüquqi filtrlər, Türkiyədə isə parlamentdə təmsil olunma və ya 100 min imza şərti bu çərçivəni formalaşdırır.

Bu modelin əsas üstünlüyü ondan ibarətdir ki, hər iki halda prezident postu seçicilərin yarıdan çoxunun dəstəyi ilə əlaqələndirilir və ikimərhələli quruluş qalibin daha geniş sosial dayağa malik olmasına şərait yaradır. Türkiyə nümunəsində ikinci turun real siyasi alətə çevrilməsi müxtəlif bloklar arasında koalisiyaların yaranmasını və seçicilərin daha aydın seçim etməsini stimullaşdırır; Azərbaycanda isə normativ model prezidentin statusu, səlahiyyət müddəti və seçilmə prosedurunu şəffaf göstərən aydın hüquqi çərçivə və sabitlik təsəvvürü formalaşdırır. Ümumilikdə hər iki sistem legitimlik və sabitliyi qorumaqla yanaşı rəqabət və plüralizmi də nəzərə alan balanslı prezidentlik modeli kimi səciyyələnə bilər.

Bu kontekstdə hər iki ölkə üçün bir sıra ortaq inkişaf istiqamətləri mümkündür: seçki komissiyalarında daha balanslı təmsilçilik və imza-toplama/qeydiyyat prosedurlarının sadələşdirilərək rəqəmsallaşdırılması, nəticələrin şəffaf şəkildə açıqlanması; ədalətli rəqabət üçün dövlət resurslarından istifadənin aydın qaydalarla məhdudlaşdırılması, mediada namizədlərə bərabər çıxış imkanlarının genişləndirilməsi və kampaniya maliyyə mənbələrinin açıq elan edilməsi; namizədlik şərtlərinin və müşahidə institutunun elə tənzimlənməsi ki, yeni siyasi qüvvələr və vətəndaş cəmiyyəti nümayəndələri prosesə daha asan qoşula bilsinlər. Bu addımlar mövcud prezident seçkiləri modellərinin legitimlik, sabitlik və rəqabət baxımından müsbət potensialını daha da gücləndirə bilər.

ƏDƏBİYYAT

1. Aspen Institute, "Democracy in Two Nations: Comparing Elections in Brazil and the US," Aspen Institute. [Online]. Available: https://www.aspeninstitute.org/blog-posts/democracy-two-nations-comparing-elections-brazil-and-us/ [15.12.2025].
2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, "Azərbaycan Respublikasının Seçki Məcəlləsi (PDF)," MSK. [Online]. Available: https://nmsk.gov.az/files/1/MSK/_Az%C9%99rbaycan%20Respublikas%C4%B1n%C4%B1n%20Se%C3%A7ki%20M%C9%99c%C9%99ll%C9%99si.pdf [15.12.2025].
3. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, "Prezident seçkilərinin yekunlarına dair Protokol (2018)," MSK, 2018. [Online]. Available: https://www.msk.gov.az/uploads/Secki-2018/MSK_protokol-2018.pdf [15.12.2025].
4. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, "Prezident seçkilərinin yekunlarına dair Protokol (2024)" MSK, 2024. [Online]. Available: https://www.msk.gov.az/uploads/Prezident2024/MSK_protokol-2024.pdf [15.12.2025].
5. Azərbaycan Respublikası, "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında Azərbaycan Respublikasının Qanunu," No. 143-XII, iyun 26, 1991. [Online]. Available: https://e-qanun.az/framework/6608 [15.12.2025].

6. Azərbaycan Respublikasının Prezidenti, "Azərbaycan Respublikasının Konstitusiyası," President.az. [Online]. Available: https://azerbaijan.az/en/site/related-information-three?mainId=703&subId=156 [15.12.2025].
7. Center for Security Studies (CSS), "CAD Analysis: Turkey's Presidential System," ETH Zurich. [Online]. Available: https://css.ethz.ch/content/dam/ethz/special-interest/gess/cis/center-for-securities-studies/pdfs/CAD-24-2-5.pdf [15.12.2025].
8. CSIS, "Europe, Russia, and Eurasia Program: 2023 Turkey Elections," Center for Strategic and International Studies. [Online]. Available: https://www.csis.org/programs/europe-russia-and-eurasia-program/projects/european-election-watch/2023-elections/turkey [15.12.2025].
9. Elysee, "Electing Presidents of the French Republic," Elysee.fr. [Online]. Available: https://www.elysee.fr/en/french-presidency/electing-presidents-of-the-french-republic [15.12.2025].
10. E-qanun, "Azərbaycan Respublikasının Konstitusiyası (Maddə 100-103)," E-qanun.az. [Online]. Available: https://e-qanun.az/framework/897 [15.12.2025].
11. E-qanun, "Azərbaycan Respublikasının Seçki Məcəlləsi (Təsdiq edilməsi haqqında)," E-qanun.az. [Online]. Available: https://e-qanun.az/framework/46953 [15.12.2025].
12. FairVote, "Mexico's Polarized Plurality Election," FairVote, Jun. 2024. [Online]. Available: https://fairvote.org/mexicos-polarized-plurality-election/ [15.12.2025].
13. Federal Ministry of the Interior and Community, "Electoral Law," BMI Bund. [Online]. Available: https://www.bmi.bund.de/EN/topics/constitution/electoral-law/electoral-law-node.html [15.12.2025].
14. German Bundestag, "The Federal Convention," Bundestag.de. [Online]. Available: https://www.bundestag.de/en/parliament/function/federal_convention [15.12.2025].
15. GZT, "2023 Seçime Katılım Oranı," GZT. [Online]. Available: https://www.gzt.com/jurnalist/2023-secime-katilim-orani-yuzde-8892-gecmis-yillarda-kacti-3746440 [15.12.2025].
16. HaberTürk, "Cumhurbaşkanlığı Seçimi 2. Tur Sonuçları,", May 2023. [Online]. Available: https://www.haberturk.com/secim/secim2023/cumhurbaskanligi-secimi-2-tur [15.12.2025].
17. IFES Election Guide, "Republic of Azerbaijan: Election Profile," ElectionGuide.org. [Online]. Available: https://www.electionguide.org/elections/id/4140/ [15.12.2025].
18. IFES Election Guide, "Republic of Turkey: Election Profile," ElectionGuide.org. [Online]. Available: https://www.electionguide.org/countries/id/218/ [15.12.2025].
19. International IDEA, "Electing Presidents in Presidential and Semi Presidential Democracies," ConstitutionNet, 2019. [Online]. Available: https://constitutionnet.org/sites/default/files/2019-09/electing-presidents-in-presidential-and-semi-presidential-democracies.pdf [15.12.2025].
20. L. C. Ugalde, "Why the 2006 Mexican Election Was Clean," Journal of Democracy, vol. 18, no. 1, pp. 127-133, Jan. 2007. [Online]. Available: https://muse.jhu.edu/article/208643 [15.12.2025].
21. President of the Republic of Azerbaijan, "Referendum Act of the Republic of Azerbaijan on "Making amendments to the Constitution of the Republic of Azerbaijan", President.az, July 18, 2016. [Online]. Available: https://president.az/az/articles/view/20630 [15.12.2025].
22. R.A. Dipu, "Brazil's Electoral System (1900-2025): A Historical Overview," Election Analyst. [Online]. Available: https://electionanalyst.com/brazils-electoral-system-19002025-a-historical-overview-dr-raju-ahmed-dipu [15.12.2025].
23. R.A. Dipu, "The Electoral System of the Philippines (1900-2025): A Historical Overview," Election Analyst. [Online]. Available: https://electionanalyst.com/the-electoral-system-of-the-philippines-19002025-a-historical-overview-of-voting-and-representation-dr-raju-ahmed-dipu [15.12.2025].
24. T.C. Mevzuat, "6271 Sayılı Cumhurbaşkanı Seçimi Kanunu". [Online]. Available: https://www.tcmevzuat.com/normlar/6271-sayili-cumhurbaskani-secimi-kanunu/ [15.12.2025].
25. T.C. Resmi Gazete, "Türkiye Cumhuriyeti Anayasası," Mevzuat.gov.tr. [Online]. Available: https://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.2709-19821018.pdf [15.12.2025].

26. The Daily Guardian, “France Presidential Elections: A Historical Perspective,” The Daily Guardian. [Online]. Available: https://latest.thedailyguardian.com/historically-speaking/france-presidential-elections/ [15.12.2025].
27. TRT World, “Azerbaijan Elections,” TRT World. [Online]. Available: https://www.trtworld.com/article/12798482 [15.12.2025].
28. Türkiye Barolar Birliği, “Anayasa Değişiklikleri ve Cumhurbaşkanlığı Sistemi,” TBB. [Online]. Available: https://www.tbb.gov.tr/sites/default/files/storage/catalogs/01138870014883584 00.pdf [15.12.2025].
29. TURKPA, “Statement on the Early Presidential Elections in Azerbaijan,” TURKPA, 2024. [Online]. Available: https://turkpa.org/files/statement%202024%20az%20pre%20en.pdf [15.12.2025].
30. Wikipedia, “2018 Azerbaijani presidential election”. [Online]. Available: w.wiki/_mTfc [15.12.2025].
31. Wikipedia, “2018 Turkish presidential election”. [Online]. Available: w.wiki/_mTfg [15.12.2025].
32. Wikipedia, “Elections in Brazil”. [Online]. Available: w.wiki/_mTfv [15.12.2025].
33. Wikipedia, “Elections in Mexico”. [Online]. Available: w.wiki/_mTfq [15.12.2025].
34. Wikipedia, “Electoral College (India)”. [Online]. Available: w.wiki/_mTfj [15.12.2025].
35. Wikipedia, “List of electoral systems by country”. [Online]. Available: https://w.wiki/_mTg2 [15.12.2025].
36. Wikipedia, “President of Italy,” Wikipedia. [Online]. Available: w.wiki/_mTg3 [15.12.2025].
37. Yüksek Seçim Kurulu, “24 Haziran 2018 Seçim Takvimi ve Kanunlar,” YSK.gov.tr, 2018. [Online]. Available: https://www.ysk.gov.tr/doc/dosyalar/docs/24Haziran2018/2018SecimTakvimi/298-Secim.pdf [15.12.2025].
38. T.C. Resmi Gazete, “Türkiye Cumhuriyeti Anayasasının Bazı Maddelerinde Değişiklik Yapılması Hakkında Kanun (Kanun No. 5678),”T.C.R.G., no. 26554, Jun. 16, 2007. [Online]. Available: https://www.resmigazete.gov.tr/eskiler/2007/06/20070616-1.htm [15.12.2025].
39. S.İncekaş, “Türkiye Cumhuriyeti Anayasası,” Avukat Saim İncekaş Hukuk Bürosu. [Online]. Available: https://av-saimincekas.com/kanunlar/turkiye-cumhuriyeti-anayasasi/ [15.12.2025].
40. Vikipedi, “2014 Türkiye cumhurbaşkanlığı seçimi,”. [Online]. Available: https://w.wiki/_mTg5 [15.12.2025].
41. “Azerbaijani Presidency 2024 General Election,”IFES Election Guide. [Online]. Available: https://www.electionguide.org/elections/id/4314/ [15.12.2025].
42. “Country Profile: Azerbaijan,”IFES Election Guide. [Online]. Available: https://www.electionguide.org/countries/id/16/ [15.12.2025].

ЭЛЬГУН ИБРАГИМЗАДЕ
Докторант Западно-Каспийского университета

СРАВНЕНИЕ МОДЕЛЕЙ ПРЕЗИДЕНТСКИХ ВЫБОРОВ В АЗЕРБАЙДЖАНЕ И ТУРЦИИ: ДВУХТУРНОСТЬ, ТРЕБОВАНИЯ К БОЛЬШИНСТВУ ГОЛОСОВ И УСЛОВИЯ УЧАСТИЯ

В статье проводится сравнительный анализ правовой модели президентских выборов в Азербайджане и Турции. Исследование сосредоточено на трёх основных измерениях: проведении выборов в один или два тура, объёме необходимого большинства голосов для избрания президента и правилах, регулирующих выдвижение кандидатов и участие избирателей. В обеих странах президент избирается на основе всеобщего прямого голосования и требования абсолютного большинства голосов на определённый срок полномочий, однако применяются различные правовые решения в отношении продолжительности срока, механизмов выдвижения и ор-

ганизации участия избирателей. В статье обобщаются эти сходства и различия и в сжатой форме оценивается их влияние на легитимность, политическую стабильность и конкурентность избирательного процесса в обоих государствах.

Ключевые слова: Азербайджан, Турция, президентские выборы, двухтуровая избирательная система, абсолютное большинство голосов, требования к выдвижению кандидатов, участие в выборах, президентская система.

ELGUN IBRAHIMZADE
PhD Student, Western Caspian University

COMPARATIVE ANALYSIS OF THE PRESIDENTIAL ELECTION MODEL IN AZERBAIJAN AND TURKEY: TWO-ROUND SYSTEM, MAJORITY REQUIREMENTS AND PARTICIPATION CRITERIA

The article provides a comparative analysis of the legal framework of presidential elections in Azerbaijan and Turkey. The study focuses on three main dimensions: whether elections are held in one or two rounds, the majority requirement for the election of the president, and the rules on candidacy and electoral participation. In both countries the president is elected by direct universal suffrage on the basis of an absolute majority requirement and for a fixed term of office, yet different legal arrangements apply regarding the length of the term, nomination mechanisms and the organisation of voter participation. The article summarises these similarities and differences and briefly assesses their implications for the legitimacy, political stability and competitiveness of the electoral process in both cases.

Keywords: Azerbaijan, Turkey, presidential elections, two-round electoral system, absolute majority of votes, candidacy requirements, electoral participation, presidential system.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, s.e.d. Adil Mirabdullayev.